**"Sea Breeze" aksiyasının qaydaları**

## TERMİNLƏR VƏ ƏSAS ANLAYIŞLAR

**Aksiya** – hazırkı "Sea Breeze" aksiyası.

**Bank** – fiziki və hüquqi şəxslərdən əmanətlər və ya digər ödənilməli vəsaitlər cəlb edən, öz adından və öz vəsaiti hesabına kreditlər verən, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış və fəaliyyət göstərən hüquqi şəxs.

**Kart sahibi** – Bankla müvafiq müqavilə bağlamış və Kartdan qanuni şəkildə istifadə edən (əməliyyatları həyata keçirən) fiziki şəxs.

**Sifarişçi** – 900 Metro Center bulvarı, Foster Siti, ABŞ, CA 94404 – 2775 ünvanında yerləşən Visa İnternational Service Association şirkəti.

**Kart** – Azərbaycan Respublikası ərazisində Bank tərəfindən Kart sahibinə təqdim edilmiş və verilmiş Visa Platinum, Visa Signature və/və ya Visa Infinite ödəniş kartı.

**Xidmətlərin göstərildiyi yer –** Sea Breeze Resort, Azərbaycan.

**Tərəfdaş -** "Nardaran Invest LLC" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, hüquqi şəxsin eyniləşdirmə kodu: 140111387, yerləşdiyi yer: 28 May küçəsi, 5, Bakı, Azərbaycan.

**Texniki tərəfdaş** – "İNFOKUS" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, hüquqi şəxsin eyniləşdirmə kodu: 36563986, yerləşdiyi yer: Sportivnaya Meydanı, 1a, Kiyev, Ukrayna, 01001.

**Qaydalar** – hazırkı Aksiya qaydaları.

**QR kodu** – Kart sahibinə Qaydalarda müəyyən edilmiş şərtlər daxilində Tərəfdaş Xidmətlərini almağa imkan verən QR kodu şəklində xüsusi simvollar toplusu.

**Aksiyanın etibarlılıq müddəti** - 01.06.2024-cü il saat 00:00:01-dən 01.09.2024-cü il saat 23:59:59-a qədər olan müddət.

**Xidmətlər** – bu Qaydaların şərtlərinə uyğun olaraq dayanacaqdan istifadə ("Dayanacaq sahəsi"), içki əldə etmək ("Visa içkisi"), çimərlik klubuna giriş (Rose Bar Pool/Rose Bar Beach-ə biletlər), "Beach Club" zonasına giriş, "Costa Bar"a giriş imkanının təqdim edilməsi ilə bağlı Tərəfdaş xidmətləri.

**Çatbot** – Viber və Telegram messencerlərində olan "Visa Concierge" çatbotu.

## 1. AKSİYADA İŞTİRAK QAYDASI

1.1.Aksiyada iştirak etmək üçün Kart sahibi:

1.1.1. həqiqi Kart sahibi olmalı;
1.1.2. çatbotda olan daxili qeydiyyat qaydalarına uyğun olaraq çatbotda qeydiyyatdan keçməli və ya qeydiyyatdan keçmiş olmalı;
1.1.3. çatbotun "Təkliflər" bölməsində müvafiq çatbot menyusundakı "Sea Breeze" düyməsini seçməli;
1.1.4. bu Qaydaları oxuyub onlarla tanış olmalı;
1.1.5. Kartı çatbota əlavə etməli;

1.1.6. "Sea Breeze" çatbot bölməsində mövcud Xidmətlərdən birini seçməli:
1.1.6.1. "Dayanacaq sahəsi" ("Dayanacaq sahəsi 1" / "Dayanacaq sahəsi 2");
1.1.6.2. “Visa drinks” (“Rose Bar” / “Beach Club” / “Visa Ice cream” / “Beerbasha” / “White Beach”);
1.1.6.3.”Tickets to Rose Bar (Pool / Beach)”;
1.1.6.4. “Tickets to Beach Club”;
1.1.6.5. “Tickets to Costa Bar”.
1.1.6.6 «Tickets to White Beach»;
1.1.6.7 «Tickets to Maine Zone»;
1.1.6/8 «Tickets to Restore».

1.2. Bu Qaydalar Kart sahibi ilə Sifarişçi/Tərəfdaş/Texniki Tərəfdaş arasında rəsmi münasibətlərdə əsas sənəddir. Kart sahibi tərəfindən bu Qaydaların müddəalarının qəbulu bu Qaydaların 1.1.1.-1.1.6-cı bəndlərində göstərilən hərəkətlərin ardıcıl yerinə yetirilməsi ilə həyata keçirilir.

1.3. Kart sahibi tərəfindən aksept könüllü olaraq həyata keçirilir və bu Qaydaların şərtləri əsasında yazılı müqavilənin bağlanmasını özündə ehtiva edir. Qaydaların qismən qəbul edilməsi yol verilməzdir.

## 2. XİDMƏTLƏRİN ALINMA QAYDASI

2.1. Hazırkı Qaydaların 1.1.1.-1.1.6-cı bəndlərində göstərilən hərəkətlər uğurla yerinə yetirildikdə, Kart sahibi QR kodu alır. Hər bir fərdi Xidmət çərçivəsində özünəməxsus QR kodu təqdim edilir.

2.2. Tərəfdaşın Xidmətindən istifadə etmək üçün müvafiq yoxlama cihazında Xidmət göstərilmə Yerində QR kodunu skan etmək lazımdır. Doğrulama çatbotda QR kodu təqdim etməklə baş verir.

2.3. Xidmətlər Kart sahibinə bu Qaydalarda müəyyən edilmiş limitlər daxilində göstərilir.

2.4 “Dayanacaq sahəsi” xidmətinin göstərilməsinin xüsusiyyətləri. Bu xidmət çərçivəsində Tərəfdaş “Dayanacaq 1” seçimi zamanı 40 brend markalı parkinq yerindən və “Dayanacaq 2” seçimi zamanı 30 brend markalı parkinq yerindən ibarət məhdud sayda brend markalı parkinq yerlərini bron edə bilər. Bu Xidmət üçün QR kodu almaq imkanı cari gün saat 20:00-a qədər əlçatandır; ertəsi gün dayanacaq yeri əldə etmək üçün xidmət saat 20:00-dan sonra sifariş edilməlidir. Dayanacaq yerləri QR kodu almaq üçün müraciət edən “Dayanacaq yeri 1”də ilk 40 (qırx) nəfər, eləcə də “Dayanacaq yeri 2”də ilk 30 (otuz) nəfər üçün bron edilir. Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodunun alınması Xidmətdən istifadə deməkdir. “Dayanacaq Yeri” Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodlarının sayı ilə bağlı aşağıdakı limitlər mövcuddur: Visa Platinum kart sahibi üçün – 2, Visa Signature kart sahibi üçün – 4 və Visa Infinite kart sahibi üçün – 6. 24 saat ərzində yalnız 1 QR kodu ala bilərsiniz.

2.5. “Visa drink” xidmətinin təqdim edilməsinin xüsusiyyətləri

2.5.1. “Rose Bar”. Rosa Barda “Visa Drink” Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Signature kart sahibi üçün – 4, Visa Infinite kart sahibi üçün – 6. 24 saat ərzində bir pulsuz kokteyl əldə etmək hüququ verən yalnız 1 QR kodu əldə etmək olar. Pulsuz kokteyllər spirtli (Aperol şpritz) və/və ya alkoqolsuz (mojito) içkiləridir. Bu Xidmət üçün QR kodu alındığı andan etibarən ən çox 24 saat ərzində etibarlıdır (lakin alındığı gün saat 23:59-dan gec olmayaraq). Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodunun alınması Xidmətdən istifadə deməkdir.

2.5.2. “Beach Club”. "Beach Club"da “Visa Drink” Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Platinum kart sahibi üçün – 2, Visa Signature kart sahibi üçün – 4, Visa Infinite kart sahibi üçün – 6. 24 saat ərzində günə 1 (bir) pulsuz kokteyl əldə etmək hüququ verən yalnız 1 QR kodu əldə etmək olar. Pulsuz kokteyllər spirtli (Aperol şpritz) və/və ya

alkoqolsuz (mojito) içkiləridir. Bu Xidmət üçün QR kodu alındığı andan etibarən ən çox 24 saat ərzində etibarlıdır (lakin alındığı gün saat 23:59-dan gec olmayaraq). Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodunun alınması Xidmətdən istifadə deməkdir.

2.5.3. "Visa Ice Cream". "Visa Drink" Xidməti üçün "Visa Ice Cream"-də Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodlarının sayı ilə bağlı aşağıdakı limitlər mövcuddur: Visa Platinum kart sahibi üçün – 2, Visa Signature kart sahibi üçün – 4 və Visa Infinite kart sahibi üçün – 6. 24 saat ərzində günə 1 (bir) pulsuz kokteyl əldə etmək hüququ verən yalnız 1 QR kodu əldə etmək olar. Pulsuz ikram dondurmadır. Bu Xidmət üçün QR kodu alındığı andan etibarən ən çox 24 saat ərzində etibarlıdır (lakin alındığı gün saat 23:59-dan gec olmayaraq). Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodunun alınması Xidmətdən istifadə deməkdir.

2.5.4. "Beerbasha". "Visa Drink" Xidməti üçün "Beerbasha"-da Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodlarının sayı ilə bağlı aşağıdakı limitlər mövcuddur: Visa Platinum kart sahibi üçün – 2, Visa Signature kart sahibi üçün – 4 və Visa Infinite kart sahibi üçün – 6. 24 saat ərzində günə 1 (bir) pulsuz pivə bardağı əldə etmək hüququ verən yalnız 1 QR kodu əldə etmək olar. Bu Xidmət üçün QR kodu alındığı andan etibarən ən çox 24 saat ərzində etibarlıdır (lakin alındığı gün saat 23:59-dan gec olmayaraq). Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodunun alınması Xidmətdən istifadə deməkdir.

2.5.5 "White Beach". "White Beach"də "Visa drink" Xidməti üçün Aksiya müddəti ərzində QR kodların sayına dair aşağıdakı məhdudiyyətlər tətbiq edilir: Visa Signature kart sahibləri üçün 4, Visa Infinite kart sahibləri üçün 6 ədəd pulsuz içki təqdim edilir. 24 saat ərzində pulsuz kokteyl əldə etmək hüququ verən yalnız 1 QR kodu almaq olar. Pulsuz kokteyllərə spirtli cin-tonik və/və ya alkoqolsuz (moxito) daxildir. Bu Xidmət üzrə QR kodu alındığı andan etibarən ən çoxu 24 saat müddətində etibarlıdır (lakin alındığı gün saat 23:59-dan gec olmayaraq). Xidmətin faktiki istifadəsindən asılı olmayaraq, QR kodun alınması Xidmətdən istifadə deməkdir.

2.6. "Tickets to Rose Bar Pool" Xidmətinin təqdim edilmə xüsusiyyətləri. "Tickets to Rose Bar Pool" Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Signature kart sahibləri üçün – 4 (dörd), Visa Infinite kart sahibləri üçün – 6 (altı). "Tickets to Rose Bar" Xidmətinin Aksiyası saat 23:59-dək keçərlidir. Xidmətin göstərildiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər iş günləri gündə otuz (30) yerlə, həftə sonları və bayram günləri isə iyirmi (20) yerləməhdudlaşır. QR kod əsas Visa kassasında təsdiqlənir.

2.7 "Tickets to White Beach " Xidmətinin təqdim edilmə xüsusiyyətləri. "Tickets to White Beach " Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Signature kart sahibi üçün – 4 (dörd), Visa Infinite kart sahibi üçün – 6 (altı). "Tickets to White Beach " Xidmətinin Aksiyası saat 23:59-dək keçərlidir. Xidmətin yerləşdiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər gündə otuz (30) yerlə məhdudlaşır. QR kod əsas Visa kassasında təsdiqlənir.

2.6. "Beach Club" Xidmətinin təqdim edilmə xüsusiyyətləri "Beach Club" Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Platinum kart sahibi

üçün - 2 (iki), Visa Signature kart sahibi üçün – 4 (dörd), Visa Infinite kart sahibi üçün – 6 (altı). Bu Xidmət üzrə Aksiya cari gün saat 23:59-dək qüvvədədir. Xidmətin yerləşdiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər gündə qırx (40) yerlə məhdudlaşır.

2.8. "Costa Bar" Xidmətinin təqdim edilmə xüsusiyyətləri. "Costa Bar" Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Platinum kart sahibi üçün - 2 (iki), Visa Signature kart sahibi üçün – 4 (dörd), Visa Infinite kart sahibi üçün – 6 (altı). Bu Xidmət üzrə Aksiya cari gün saat 23:59-dək qüvvədədir. Xidmətin yerləşdiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər gün ərzində mövcud 25 (iyirmi beş) yer çərçivəsində təqdim edilir. Kart sahibi zonaya giriş zamanı salamlama içkisi (Ice Latte) alır. QR kod əsas Visa kassasında təsdiqlənir.

2.9 “Tickets to Restore” Xidmətinin təqdim edilmə xüsusiyyətləri. “Tickets to Restore” Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Platinum kart sahibləri üçün 2 (iki), Visa Signature kart sahibləri üçün 4 (dörd) və Visa Infinite kart sahibləri üçün 6 (altı). “Tickets to Restore” Xidməti üzrə Aksiya saat 23:59-dək qüvvədədir. Xidmətin yerləşdiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər gün ərzində mövcud 6 (altı) yer çərçivəsində təqdim edilir. Kart sahibi özü ilə yalnız bir qonaq keçirə bilər. Kart sahibi əraziyə daxil olduqdan sonra Welcome Drink içkisi (prosekko, mohito və ya aperol) alır.

2.9 “ Tickets to Main Zone;” Xidmətinin təqdim edilmə xüsusiyyətləri; " “Tickets to Main Zone” Xidməti üçün Aksiyanın Etibarlılıq Müddəti ərzində QR kodların sayına aşağıdakı limitlər tətbiq edilir: Visa Signature kart sahibləri üçün 4 (dörd) və Visa Infinite kart sahibləri üçün 6 (altı). “Tickets to Main Zone” Xidməti üzrə Aksiya saat 23:59-dək qüvvədədir. Xidmətin yerləşdiyi yerdə müvafiq yoxlama cihazında QR kodunun təsdiqlənməsi belə Xidmətdən istifadə deməkdir. Kart sahibi QR kodu aldıqda, lakin gün ərzində belə koddan istifadə etmədikdə, o zaman belə kod Kart sahibi tərəfindən istifadə edilmiş hesab olunur. Kart sahibi ona aid QR kodlar çərçivəsində qonaqları keçirə bilməz. Yerlərin sayı məhduddur. Keçid məkanın qaydalarına uyğun olaraq həyata keçirilir; məkanın iş saatları dəyişə bilər. Keçidlər iş günləri gün ərzində mövcud 30 (otuz) yer, həftə sonları və bayram günləri isə 30 (otuz) yer çərçivəsində təqdim edilir. QR kod əsas Visa kassasında təsdiqlənir.

## 3. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

3.1. Kart sahibi təqdim olunan məlumatların düzgünlüyünə və Kartdan istifadə hüququna görə mövcud qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

3.2. Vergilərin, rüsumların və icbari ödənişlərin ödənilməsi mövcud qanunvericiliyin müddəaları ilə müvafiq məsuliyyət daşıyan şəxs tərəfindən həyata keçirilir.

3.3. Sifarişçi / Tərəfdaş / Texniki Tərəfdaş Kart Sahibinin və ya üçüncü şəxslərin onlardan asılı olmayan səbəblərə görə, o cümlədən ləğvetmə, səfər vaxtının dəyişdirilməsi, hökumət orqanları tərəfindən qoyulan məhdudiyyətlər, Tərəfdaşın işindəki dəyişikliklər, mövcud qanunvericilik müddəalarının Kart sahibi və ya onu müşayiət edən şəxslər tərəfindən pozulması və s. ilə əlaqədar olaraq Xidmətdən istifadə edə bilməməsinə görə məsuliyyət daşımır.

3.4. Tərəfdaş Kart sahibinə, onu müşayiət edən şəxslərə dəymiş ziyana görə, habelə üçüncü şəxslərin və Kart sahibinin iddialarına əsasən Xidmətlərin göstərilməsi çərçivəsində tam məsuliyyət daşıyır.

3.5. Tərəfdaşın Xidmətlərdən öz şəxsi istifadə qaydaları ola bilər, ona görə də Kart sahibi və üçüncü tərəflər Xidmətlərdən istifadə etməzdən əvvəl onlarla tanış olmalıdır.

## 4. DİGƏR MÜDDƏALAR

4.1. Texniki Tərəfdaş bu Qaydalar çərçivəsində öhdəliklərini yerinə yetirmək üçün üçüncü şəxsləri cəlb etmək hüququna malikdir.

4.2. Bu Qaydaların birmənalı olmayan təfsiri ilə bağlı vəziyyət, hər hansı mübahisəli məsələlər və/və ya Qaydalarla tənzimlənməyən məsələlər yaranarsa, Texniki Tərəfdaş/Sifarişçi bu kimi məsələlərin həlli ilə bağlı qərarı özündə saxlayır. Texniki Tərəfdaşın/ Sifarişçinin bu qərarı qətidir və şikayət edilə bilməz.

4.3. Etibarlılıq müddəti Sifarişçi və Texniki Tərəfdaşın qarşılıqlı razılığı ilə dəyişdirilə və ya vaxtından əvvəl ləğv edilə bilər. Etibarlılıq Müddətinə dəyişikliklərin edilməsi və ya ona vaxtından əvvəl xitam verilməsi çatbotda yeniləndiyi zamanı mümkündür.

4.4. Hazırkı Qaydalar və onlara edilən dəyişikliklər nəzərdən keçirilməsi üçün Çatbotda yerləşdirilmişdir.

4.5. Texniki tərəfdaş Etibarlılıq müddəti ərzində mövcud qaydalara dəyişiklik etmək hüququnu özündə saxlayır.

4.6. Hazırkı Qaydalar 01.06.2024 tarixində qüvvəyə minir.